# FEVRAL 2017

**SOCAR Polimer MMC-nin xəbərlər bülleteni / Nömrə 2 / 2017-ci il**

**Bu buraxılışda:**



Sumqayıt Təhsil və təlim mərkəzinə ziyarət zamanı səhmdarlarla keçirilən görüş
Səh.4



SAP ERP layihəsinin müzakirəsi gedir Səh.8

**Ailə Günü**



Ailə Günündə SOCAR Polimer şirkəti Sumqayıtda fəaliyyət göstərən layihə kollektivinin üzvlərinin övladlarını tikinti meydançasında tanışlıq gəzintisinə dəvət etdi.
Səh.18

İş vaxtının itkisi olmadan
3.000.000-dan
artıq adam/saat işlənmişdir

278
İşçi

70.9%
PP zavodu – yanvar ərzində ümumi irəliləyiş

26.3%
YSPE zavodu – yanvar ərzində ümumi irəliləyiş

SOCAR POLYMER

# Baş Menecerin müraciəti




Hörmətli həmkarlar!

Biz keşməkeşli 2016-cı ili arxada buraxıb 2017-ci ilə qədəm qoymuşuq. Hər şeydən əvvəl, mən 2016-cı ildə göstərdiyiniz əzmkar zəhmətinizə və fədakarlığınıza görə sizə öz minnətdarlığımı bildirmək istərdim. Bu il daha da səylə çalışacağımıza və daha yüksək nəticələr əldə edəcəyimizə ümid edirəm. Unudmamalıyıq ki, bu layihə çərçivəsində müəyyən etdiyimiz standartlar həm SOCAR GPC şirkəti, həm də digər gələcək layihələr üçün də səmt nişanı rolunu oynayacaq.
Bu il biz bir sıra çətin məsələ ilə üz-üzə gələcəyik. Onlardan ən vacibləri bunlardır:

1. **STTƏMM standartlarına ciddi və müntəzəm surətdə əməl etmək;**
2. **Polipropilen qurğusunda mexanika-montaj işlərini uğurla başa vurmaq;**
3. **İstismar üzrə mütəxəssis kollektivini yaratmaq;**
4. **SAP sistemini tətbiq etmək.**

1) Biz sahədə çox ciddi STTƏMM standartları tətbiq edirik. Bunun nəticəsində biz iş vaxtının itkisinə yol vermədən 3 milyon adam/saat həcmində qəzasız iş görmüşük. Lakin biz arxayınlıq qapılmadan və, xüsusən də, iş həcminin və intensivliyinin artmasını nəzərə olaraq bu əlamətdar rekordu qoruyub saxlamalıyıq. Əlbəttə, biz ofislərdə də STTƏMM standartlarının tələblərinə ciddi şəkildə riayət etməliyik.

**2) Mexaniki-montaj işlərinin başa çatdırılması, qurğunun istismara verilməsi və işə salınması bu ilin dördüncü rübünə planlaşdırılır.**
Əldə edilməsi çətin olan bu məqsəd kollektivin hər bir üzvündən tam fədakarlıq, İPMT kollektivindən isə əlavə mütəşəkkillik və podratçılarla sıx əməkdaşlıq tələb edəcək. SOCAR Polimerin bu sahədə də daha bir əlamətdar nailiyyət əldə edəcəyinə nikbinliklə yanaşdığıma baxmayaraq, biz sadəcə bir dəst avadanlıq olan bu qurğuların fəaliyyət göstərən zavoda çevrilməsi ilə bağlı çətinlikləri də az görməməliyik.

**3) İstismar üzrə mütəxəssis kollektivimizin özəyi artıq formalaşdırılmışdır.**
Buna baxmayaraq, tam hazır və komplektləşdirilmiş kollektivin yaradılmasına hələ çox məsafə qət etməliyik. Bundan əlavə, biz qərara aldıq ki, əməliyyatlar ingilis dilindən istifadə edilməklə aparılsın. Bu qərar müstəqil surətdə vəhdət təşkil edən, bu sənayedə fəaliyyət göstərən şirkətlərlə əlaqə quran, hamı üçün geniş imkanlar yaradan və, beləliklə də, həqiqətən beynəlxalq standartlara cavab verən bir təşkilata çevrilməyimizə imkan verəcək.

**4) SAP ERP sisteminin tətbiq edilməsi gələcək təşkilatın vacib hissəsini təşkil edəcək.** Layihələr tam sürətlə irəliləyir və biz onları bu ilin ortalarına qədər başa çatdırmaq niyyətindəyik. ERP sistemi hər təşkilatda əhəmiyyətli rol oynayır. Bu sistem bütün funksiyaları birləşdirən və onların vəhdətini yaradan bir onurğa sütunudur. Mən hamınızdan bu layihəyə tam dəstək verəcəyinizi gözləyirəm.
Mən həqiqətən hamınız və hər birinizlə fəxr edirəm. Sükanı belə saxla!

Fərid Cəfərov



**Fevral 2017**

# Tikinti sahəsindən fotolar





# Səhmdarlarla görüş və Sumqayıtdakı Təhsil və Təlim Mərkəzinə ziyarət

24 fevral 2017-ci il tarixində səhmdarlarımızın (Azərsun, Gilan və Paşa xoldinqlərinin) təmsilçiləri ilə keçirilmiş görüşdə layihənin cari vəziyyəti və gələcək planlarına dair məlumat təqdim edildi. Təqdimatat SOCAR Polimer şirkətinin Baş Meneceri Fərid Cəfərov, Layihə Meneceri Gi Lombarts, Tikinti üzrə Baş Menecer Con Ərrousmit, Təlim və İnkişaf üzrə Böyük mütəxəssis Nərgiz Səlimova və Planlaşdırma üzrə Baş Menecer Vüqar Aslanov tərəfindən aparıldı. Təqdimatdan əvvəl tikinti sahəsini ziyarət etmiş səhmdarlar tikintidə baş vermiş irəliləyişə şahid oldular. Əlavə olaraq, səhmdarlar Sumqayıtdakı Təhsil və Təlim Mərkəzini (STTM) də ziyarət etdilər. 6 oktyabr 2016-cı il tarixində SOCAR Polimer MMC şirkəti




İnsan Resursları: Yay Təcrübə Proqramı
İyun-İyul
29
13
76
205
YAY TƏCRÜBƏ PROQRAMI SEÇİM MƏRHƏLƏLƏRİ
303 tələbə
1-ci mərhələ:
2-ci mərhələ:
3-cü mərhələ:
4-cü mərhələ:


Cəmi
59,135,803.00
209,455,812.00
260,159,615.00
208,840,385.00
489,000,000.00


Detallı mühəndislik işləri
Satınalma
PP
Podratçılarla müqavilələr
İstehsal və çatdırılma
Tikinti
Ümumi işlərin görülmə səviyyəsi
YSPE
Detallı mühəndislik işləri
Satınalma
Podratçılarla müqavilələr
İstehsal və çatdırılma
Tikinti
Ümumi işlərin görülmə səviyyəsi
SOCAR POLYMER
SOCAR
POLYMER



ilə SOCAR-ın Təhsil, Təlim və Sertifikasiya Departamenti arasında imzalanmış Personalın Təlimi haqqında Sazişə əsasən başlamış yeni əməkdaşlıq çərçivəsində 4 qrup işçi üçün üç ixtisas istiqaməti üzrə təlim kurslarının keçirilməsi nəzərdə tutulur. Operatorlar qrupunda təlim keçənlər artıq kursu bitirmiş və əldə etdikləri bilik və bacarıqları istehsalatda tətbiq etməyə başlamışlar. SOCAR Polimerin qalan üç qrupa aid işçiləri isə STTM-də texnologiya, energetika və nəzarət-ölçü avadanlıqları/avtomatika sahələri üzrə təlimlərdə iştirakını davam etdirirlər. Ünsiyyət qurma bacarıqlarını və dil biliklərini artırmaq üçün təlim iştirakçıları həmçinin öz ixtisas fənlərinə əlavə olaraq 3-aylıq texniki İngilis dili kursunu da keçirlər.

Təlim mərkəzində əldə etdikləri bilik və bacarıqları əsasında fərdi surətdə hazırladıqları təqdimatlarda təlim iştirakçıları PP və YSPE zavodlarında idarə edəcəkləri avadanlıq barədə məlumat verdilər. Həmin təqdimatlar ingilis dilində hazırlanaraq təqdim edildi. Tədbirdə Təhsil, Təlim və Sertifikasiya Departamentinin müdiri Fuad Süleymanov, SOCAR Polimer MMC şirkətinin Baş Meneceri Fərid Cəfərov, habelə Paşa Xoldinq, Gilan Xoldinq, Azərsun Xoldinq və Polimer İnşaat şirkətinin nümayəndələri də iştirak etdilər. Tədqimatlardan sonra qonaqlar təhsil keyfiyyətindən razı qaldıqlarını ifadə edib təlim mərkəzində təlim keçən SOCAR Polymer işçilərinə, habelə STTM əməkdaşlarına uğurlar arzuladılar.










SOCAR
POLYMER



# SAP ERP sisteminin tətbiq olunması

**SOCAR Polimer öz işgüzar fəaliyyətini təkmilləşdirməyə və yenidən strukturlaşdırmağa qərar vermişdir. Bu məqsədlə müəssisədə tətbiq edilmək üçün SAP ERP sistemi seçilmişdir. Bu təşəbbüs çərçivəsində işgüzar proseslərin hazırkı konfiqurasiyası təhlil ediləcək və SAP ERP sisteminin funksional imkanlarından istifadə etməklə onlar yenidən strukturlaşdırılacaq.**

**1) SAP məfhumunun tərifi**
ERP sistemləri şirkətin daxili işgüzar proseslərin mərkəzləşdirilmiş surətdə aparılmasını təmin edir. Bu, modullar əsasında fəaliyyət göstərən vahid proqram təminatlı sistemlərdir. ERP-nin başlıca funksiyası şirkətdə gedən əsas işgüzar proseslərin vahid mənzərəsinin real vaxt rejimində yaradılmasından ibarətdir. Bu modullar sistemi hər modula lazım olan bütün məlumatları və istifadəçi tələblərini bölüşən məlumat bazasından istifadə edir və qabaqlayıcı rejimdə işləyir.

ERP sadəcə yeni proqram təminatı deyil, o, həm də təşkilatlanma mədəniyyətinin dəyişdirilməsi deməkdir.

**2) SAP sisteminin məqsədləri**
Nə üçün məhz SAP ERP sistemi seçilmişdir? Ona görə ki, bu sistem:

- İşgüzar proseslərin aparılmasını asanlaşdırır;
- Bütün şöbələr üçün vahid sistem aləti kimi istifadə olunur;
- Məhsuldarlığı, operativliyi və sifarişçi tələblərinə cavab vermə sürətini artırır;
- Səmərəliliyin artırılması tələblərinə cavab verir və müvafiq nəzarəti təmin edir;
- Yeni biznes və inkişaf strategiyalarının tətbiq edilməsinə yardım edir;
- Operativlik səviyyəsini artırır;
- Xərcləri azaldır və səmərəsiz prosesləri aradan qaldırır;
- Fasiləsiz təkmilləşmə təmin edir.

**3) Plan nədən ibarətdir?**

**ASAP Metodologiyası SAP sisteminin effektiv və tam surətdə tətbiq olunmasını təmin edən bir konsepsiyadır. Ümumilikdə, o, aşağıdakı mərhələlərdən ibarətdir:**

Layihənin hazırlanması mərhələsi: ilkin planlaşdırma, məqsədlərin və icra müddətlərinin müəyyən edilməsi, kollektivin üzvlərinin seçilməsi.

Biz buradayıq - 65% başa çatdırlımışdır
**İş həcminin yoxlanılması mərhələsi:** bu mərhələdə anlamaq lazımdır ki, SAP sistemi hazırkı işgüzar proseslərlə bağlı hansı həll yolları təmin edəcək və təşkilat SAP sistemini biznes delta tələbləri də daxil olmaqla öz işgüzar məqsədləri üçün necə istifadə etmək niyyətindədir. Bu mərhələdə işgüzar fəaliyyətlərə aid geniş çeşiddə sənədlər işlənib hazırlanır - 15% hazırdır (Biz də buradayıq – mərhələ başladı)

**Həyata keçirmə mərhələsi:** Biznes delta tələbləri (yəni, işgüzar prosesdə hələ də yerinə yetirilməmiş tələblər) müəyyən edildikdən sonra bu mərhələdə həmin tələblərin yerinə yetirilməsi fazası başlayır. Proqram təminatı istifadəyə verilməzdən əvvəl bu mərhələdə sistemin məhdud müddətli işçi dövrlərinin sınaqları keçirilir.

**Yekun hazırlıq mərhələsi:** Məşqlər və son istifadəçilərin təlimləri də daxil olmaqla yeni sistemlərə keçid tədbirləri başa çatdırılır. Bu mərhələdə aparılan işlər istismara verilmə prosesinə yardım edir.

**İstifadəyə verilmə işlərinə dəstək mərhələsi:** SAP modullarının istifadəyə verilməsi daimi dəstək tələb edir.

## Cavid Əliyev – MTT üzrə ixtisaslı mütəxəssis



Mənim funksiyam Maddi-Texniki Təminat və podratlar sahəsindəki işgüzar proseslərin əlaqələndirilməsi və həmin proseslərin MTT sistemi çərçivəsində daha effektiv və operativ surətdə tətbiq edilməsindən ibarətdir. Vəzifələrimə eləcə də mal və materiallarla əlaqədar tələblərin izlənməsi, materiallar və xidmətlərin satın alınması üçün tələbnamələrin və sifarişlərin hazırlanması, inventarlaşma və anbar ehtiyatlarının idarə olunması, materialların buraxılmasına və hərəkətinə nəzarət kimi funksiyalar da daxildir. Yuxarıdakı vəzifələrlə yanaşı, mən həm də MMT şöbəsinin fəaliyyətinə aid olan bütün mövcud məlumatların hal-hazırda istifadədə olan 1C sistemindən yeni SAP sisteminə köçürülməsinə cavabdeham.

## Vüqar Aslanov - SAP Layihə meneceri



Bir layihə meneceri kimi mənim diqqətim əməliyyatların və bütün digər funksiyaların vahid ERP sistemi çərçivəsində fasiləsiz biznes prosesi olaraq strateji baxımdan necə həyata keçiriləcəyini nümayiş etdirmək məsələsi üzərində cəmləşəcək. Biz bu layihəni vaxtı-vaxtında və büdcə çərçivəsində yerinə yetirəcəyik. Biz ASAP-8 layihə idarəetmə texnologiyasından istifadə edəcəyik. Burada mənim rolum layihə planını işləyib hazırlamaqdan, layihənin iştirakçıları ilə əlaqələrə rəhbərlik etməkdən, məlumat mübadiləsini idarə etməkdən, layihə kollektivinə rəhbərlik etməkdən, layihə ilə bağlı riskləri idarə etməkdən, layihə qrafikinə və büdcəsinə nəzarət etməkdən, layihə çərçivəsində ortaya çıxa bilən münaqişələri həll etməkdən və layihənin gedişinə nəzarət etməkdən ibarət olacaq.

## Alina Əyyubova – Kadrlar şöbəsinin ixtisaslı



Kadrlar şöbəsinin ixtisaslı mütəxəssisinin əsas funksiyası SAP məsləhətçilərini layihəyə dair müvafiq düzgün məlumatlarla təmin etməkdən ibarətdir ki, bunun əsasında həmin məsləhətçilər şöbədə işlərin necə getdiyi haqda tam təsəvvür əldə edə bilsinlər. Prosesləri dərindən təhlil etməklə və zəruri məlumatları toplamaqla Kadrlar şöbəsinin ixtisaslı mütəxəssisi kadrlarla bağlı işi şirkətin strategiyasına və milli qanunvericiliyin tələblərinə uyğun olaraq təkmilləşdirilməsi və optimallaşdırması məqsədi ilə SAP layihəsinin icrası prosesinə kömək edir. Beləliklə, Kadrlar şöbəsinin ixtisaslı mütəxəssisinin məqsədi təlimlər və ustalıq kurslarını təşkil etməkdən, və eləcə də Kadrlar şöbəsindəki bütün SAP istifadəçilərinə hərtərəfli yardım göstərməkdən ibarətdir.

## Gülnara Budaqova - SAP layihə koordinatoru



Mənim funksiyama layihə üzrə fəaliyyətin və kollektivin resurslarının əlaqələndirilməsi, layihə sənədlərinin və qrafiklərinin nəzərdən keçirilməsi və qiymətləndirilməsi, layihə qrafikinin hazırlanması, büdcə ilə bağlı faktiki hesabatların və proqnozların verilməsi, layihə sənədlərinin hazırlanması daxildir. Bu layihə üzrə tədbirlərin, risklərin və dəyişiklərin əlaqələndirilməsi, layihənin gedişi haqqında hesabatların və idarə etmə komitəsinin hesabatlarının hazırlanması ilə bağlı məsələlərinin əlaqələndirilməsi də daxil olmaqla layihənin icrasının asanlaşdırılması ilə bağlı bütün aspektlər də daxildir. Layihə koordinatoru "cari" biznes proseslərinin qiymətləndirilməsində və "gələcək" biznes proseslərinin hazırlanmasında iştirak edir və layihə kollektivini layihənin idarə olunması üsulları və vasitələrinə dair məlumatlarla təmin edir. Layihənin yekun mərhələsində koordinator təlim prosesinə kömək göstərir.

## Cəmilə Aşurova – Mühasibat üzrə ixtisaslı mütəxəssis



Mənim əsas funksiyam hazırkı prosesi və istifadədə olan mühasibat sistemini izah etmək məqsədi ilə məsləhətçilərlə intensiv işin aparılmasından ibarətdir. Vəzifələrimə SAP ERP sistemindən istifadə etməklə Maliyyə mühasibatı sahəsində biznes mədəniyyətinin artırılması, biznes prosesləri planının və işgüzar konfiqurasiyalarının işlənib hazırlanması, vəsaitlərə nəzarət və vəsaitlərin idarə olunması modullarının işlənib hazırlanması, bütün əvvəlki illərə aid məlumatların köhnə sistemdən yeni sistemə köçürülməsi də daxildir. Mühasibat digər şöbələrdən daxil olan məlumatların son istifadəçisi olduğuna görə mən həm də bütün şöbələrin SAP sisteminə inteqrasiya prosesində iştirak edirəm.

## Alina Həsənova - SAP



Mənim əsas vəzifələrimə layihə kollektivinə inzibati dəstəyin verilməsi, layihə üzrə planların və qrafiklərin qeydiyyatın aparılması, işlərin ümumi gedişinə nəzarət və müvafiq hesabatların verilməsi, rəhbərliyin tələb etdiyi hesabatların hazırlanması, resurslardan istifadə olunması prosesinin monitorinqi, keyfiyyət aspektlərinə nəzarətin aparılması, layihə sənədlərindən ibarət reyestrin təşkil edilməsi və aparılması, məlumat və sənəd axınının idarə olunması və inzibatçılıq daxildir.

## Ruslan Hüseynov – İxtisaslı maliyyə mütəxəssisi



Ümumilikdə, SAP təşkilatın daxilində etibarlı və mütəşəkkil mühit yaradır. Mənim əsas vəzifəm məsləhətçilərə maliyyə fəaliyyətimizə dair təfsilatlı məlumat verməkdən ibarətdir. Bununla biz maliyyə və risklərin, likvidlik və pul vəsaitlərinin idarə olunması üçün nəzərdə tutulan modulların düzgün tətbiq olunmasını təmin edə bilərik. Bu modullar bizi maliyyə əməliyyatlarının işlənilməsi və maliyyə aspektlərinin idarə olunması üçün lazım olan güclü alətlə təchiz edəcək və bununla yanaşı SAP sisteminə maliyyə mühasibatı üçün xüsusi praktiki vasitələr inteqrasiya ediləcək.

## Kamran Hümmətov - SAP üzrə Baş İT inzibatçısı



SAP üzrə Baş İT inzibatçısı texniki infrastrukturun planlaşdırılması, zəruri komponentlərin quraşdırılması, sistemin konfiqurasiyası və SAP sisteminin mühitinə inteqrasiyası, və eləcə də istehsal sistemindəki infrastrukturun idarə olunması prosesində tələb olunan köməyi göstərmək üçün tələb olunan zəruri vasitələr təmin edir. Əlavə cavabdehliklərim: sistemin quraşdırılması və konfiqurasiyasının qurulması, serverlərə düşən yüklərin balanslaşdırılması, müxtəlif komponentlərin idarə olunması, interfeyslərin serverlərlə inteqrasiya edilməsi prosesinin idarə olunması, serverlərin və müxtəlif İT xidmətlərinin idarə olunması.

SOCAR POLYMER

# ERP LAYİHƏ KOLLEKTİVİ




# SAP Layihəsinin strukturu






Layihə kollektivinin SOCAR Polimerin rəhbərliyi və personalı üçün hazırladığı “ERP Layihəsinin rəsmi surətdə başlanması” adlı təqdimatın keçirildiyi iclas zamanı. İclasda aşağıdakı mövzular müzakirə edildi:

- ERP Layihəsinin təşkilat strukturu və ofisin fəaliyyət planı;
- ERP Layihəsinin missiyası, konsepsiyası və strategiyası;
- İş mədəniyyətində baş verən dəyişikliklər;
- Əməliyyatlar - Biznes prosesinin Yüksək səviyyəli texnoloji sxemi;
- Əməliyyatlar – Funksional II Səviyyəli texnoloji kart;
- SAP sisteminin üstünlükləri;
- ERP Layihə planı;
- Çətinliklər.







SOCAR POLYMER





Tərlan Əbiyev

# Zavod şəraitində təhvil-təslim sınaqları



*SOCAR Polimerin əməkdaşı İPMT qrupunun Nəzarət və Avtomatika üzrə Aparıcı Mühəndisi Tərlan Əbiyev Milanda fəaliyyət göstərən SAFCO şirkətinin istehsalat müəssisəsində zavod şəraitində təhvil-təslim sınağının (ZTS) keçirilməsi məqsədi ilə 20 fevral 2017-ci il tarixində İtaliyaya səfər etmişdir. SAFCO şirkəti Bakıdakı PP və YSPE zavodlarında quraşdırılacaq yanğın və qaz sızıntısı aşkarlayan sistem istehsal etmişdir. Tərlan səfər təfsilatlarını bizimlə paylaşdı. O dedi:*

“Şirkətimizin sifariş etdiyi Yanğın və qaz sızıntısı aşkarlama sisteminin İtaliyada hazırlanaraq zavodlarımızda quraşdırılması və işə salınması nəzərdə tutulmuşdur. ZTS prosesi deyildikdə sistemin və ya məhsulun müqavilədə qeyd olunmuş tələb və spesifikasiyalara uyğunluğunu yoxlamaq üçün keçirilən xüsusi mühəndislik sınaqları nəzərdə tutulur. Avadanlığın son təyinat

məntəqəsinə çatdırılmasından əvvəl icra olunan ZTS sınaqlarına daxil olan funksional, fiziki və kimyəvi sınaqlar avadanlıq istehsalçının zavodunu tərk etməzdən əvvəl onun tamamilə işlək vəziyyətdə olduğunu təsdiqləmək üçün icra olunur. ZTS sınaqları istənilən istehsalat layihəsində mühüm mərhələlərdən biri olduğuna görə sınaqdan keçirilən avadanlıq sahibinin bu prosesdə iştirakı tələb olunur. Beləliklə mən şirkətimiz adından podratçılarımız olan Maire Tecnimont və Fluor şirkətlərinin mühəndisləri ilə birgə sınaq prosesində iştirak etdim. Biz sahə qurğularından tutmuş Proqramlaşdırılan məntiqi kontroller (PLC) və Kommutasiya şkafına kimi Yanğın və qaz sızıntısı aşkarlama sisteminin bütün komponentlərini yoxladıq; bütün Giriş və Çıxış modullarını sınaqdan keçirdik, zavodumuzda quraşdırılacaq Tüstü detektorlarını, həyəcan siqnalizasiyasının qurğularını və sayrışan siqnalizasiya işıqlarını, habelə zavodun müxtəlif binalarında quraşdırılacaq qaz sızması/yanğına qarşı yanğın xəbərdarlıq panellərini yoxladıq.
Beləliklə, ikihəftəlik səfərin məqsədlərinə nail olduq və missiyanı uğurla yerinə yetirdik.
olduq və missiyanı uğurla yetişmiş olduq.








# PETKIM şirkətində təlim kursu – İstismar prosesinin əsasları

**Sifarişçilər keyfiyyət tələb edir. Şirkətlər yüksək nəticələr tələb edir. Başqa məqamlarla yanaşı, bu məsələnin həlli həm səriştəli və yüksək ixtisaslı kadrlardan, həm də şirkətin sabit və hərtərəfli inkişaf planından asılıdır.**

Kadrlar şöbəsinin həyata keçirdiyi SOCAR Polimerin Təlim və ixtisas artırma proqramı çərçivəsində planlaşdırılan və icra edilən tədbirlərin məqsədi kadrların fasiləsiz təkmilləşdirilməsi və onların bacarıq səviyyəsinin artırılmasından ibarətdir. Şirkəti innovativ tendensiyaların axarında tutmaq və xarici ölkələrin qeyd olunan sahələrdə əldə etdiyi mütərəqqi təcrübədən geri qalmamaq üçün həmin tədbirlər çərçivəsində həm də tədqiqat/təlim turlarının keçirilməsi nəzərdə tutulur. Türkiyənin Petkim şirkətində fevralın 20-də başlayan iki həftəlik təlim turu SOCAR Polimer əməkdaşlarının peşəkar potensialının, hazırlıq səviyyəsinin və təcrübəsinin daha da artırılması üçün nəzərdə tutulmuş idi. Əyani təcrübə qazanmaq, istehsal əməliyyatlarını yerində müşahidə etmək, onlarla birbaşa təmasda olmaq və faktiki istehsal prosesi ilə daha yaxından tanış olmaq məqsədi ilə 11 qurğu operatoru, 2 növbə supervayzeri və bir mühəndis-texnoloqdan ibarət 14 nəfərlik qrup PETKİM-in PP/YSPE qurğuları yerləşən sənaye sahələrini ziyarət etdilər.

















Egey Ticarət Palatasının məlumatına əsasən, 1965-ci ilin aprel ayında TPAO təşkilatının rəhbərliyi altında təsis edilmiş PETKİM şirkəti hal-hazırda Egey dənizi regionunda fəaliyyət göstərən 100 ən iri sənaye şirkəti arasında üçüncü yeri tutur və ən iri ixracatçı şirkət hesab olunur. Bu şirkətin istehsalat obyektlərinin ziyarət edilməsi gələcəkdə neft-kimya və emal prosesləri sahəsində bütün istismar qaydalarına, keyfiyyət və təhlükəsizlik standartlarına riayət etməklə əməliyyatların yüksək peşəkarlıqla aparılması yollarının mənimsənməsinə, müəyyən edilən qurğu və obyektlərin təsdiq edilmiş istismar qaydalarına uyğun olaraq işə salınmasına, emal işlərinin və neft-kimya avadanlığı istifadə olunan əməliyyatların daha yaxşı mənimsənməsinə, qurğuların səmərəli fəaliyyət göstərməsini yoxlamaq və ya supervayzerlərin diqqət yetirməsini tələb edən nasazlıqları aşkar etmək məqsədi ilə istehsalat obyektlərində müntəzəm təftişlərin və kontrol yoxlamaların keçirilməsinə yardım etmək imkanı verəcəkdir.

Bu tədqiqat turunun iştirakçıları istehsalatda aparılan proses və əməliyyatlarla real vaxt rejimində tanış olmaq üçün PETKİM-in ayırdığı operatoru bütün iş günü boyunca müşayiət etdilər.

Martın 3-də təlim turu başa çatdıqdan sonra “İstismar prosesinin əsasları” adlı təlim proqramının iştirakçıları PETKİM şirkətinin təşkil etdiyi kiçik mərasimə qatıldılar. Həmin mərasimdə təlim kursunun nəticələri elan edildi və müvafiq şəhadətnamələr təqdim olundu. Şəhadətnamə şəxslər arasında bu yaxınlarda SOCAR-ın Sumqayıtdakı Təhsil və təlim mərkəzində “Texnoloji əməliyyatlar” adlı kursu uğurla başa vurmuş üç nəfər də var idi.






SOCAR POLYMER



# Şəhadətnamələrin verilməsi mərasiminin iştirakçıları

**PETKIM**

**Xaliq Mustafayev** – Baş menecerin müavini (Biznesə dəstək və inzibati işlər üzrə)

**Dinara Məmmədova** – Direktor, Kadrlar şöbəsi, SOCAR Türkiyə

**Levent Kocaqul** - Baş menecerinin müavini (Kadrlar üzrə)

**Həsən Ülvi Suer** – Təlim və İxtisas artırma üzrə mütəxəssis

**Bəhruz Babayev** – Menecer, Kadrların seçilməsi və kadrların idarə olunması şöbəsi

**Faruk Dəmirbaş** - Qrup meneceri, Polimer istehsalı qurğuları

**SOCAR Polymer**

**Sabina Feyzova** – Kadrlar şöbəsinin meneceri

**Elnar Mehdizadə** - İstismar üzrə menecer

**Nərgiz Səlimova** – Təlim və ixtisas artırma üzrə böyük mütəxəssis

| Sıra sayı | Adı və soyadı | Vəzifəsi |
|---|---|---|
| 1. | Nəriman Əkbərov | Növbə supervayzeri |
| 2. | Nəvai Məmmədov | Növbə supervayzeri |
| 3. | Fuad Rəhimov | Qurğu operatoru |
| 4. | Cavid Cəfərov | Qurğu operatoru |
| 5. | Xəlil Həsənov | Qurğu operatoru |
| 6. | Nizami Piriyev | Qurğu operatoru |
| 7. | Rövşən Pənahov | Qurğu operatoru |
| 8. | Rəsul Əhədov | Qurğu operatoru |
| 9. | Turqut Şıxıyev | Qurğu operatoru |
| 10. | Rəşid Kərimli | Qurğu operatoru |
| 11. | Elvin Aslanlı | Qurğu operatoru |
| 12. | Aydın Ağayev | Qurğu operatoru |
| 13. | Nicat Əhədov | Qurğu operatoru |
| 14. | Rövşən Sadıqov | Mühəndis-texnoloq |












SOCAR
POLYMER



# Ailə Günü

## SOCAR Polimerin tikinti meydançasında

SOCAR Polimer Sumqayıtdakı layihə kollektivinin övladlarını tikinti meydançasında keçirilmiş Ailə Günündə iştirak etməyə dəvət etdi. Ailə Günü bütün iştirakçılar üçün unikal tərbiyəvi təcrübə oldu. Bu tədbir uşaqlara valideynlərinin harada işlədiklərini bilmək və təhlükəsizlik qaydalarını öyrənərək tikinti meydançası ilə tanış olmaq üçün gözəl imkan verdi. Tikintinin Baş meneceri Con Ərrousmit Ailə Günü tədbirini şərh edərkən dedi: “Biz Ailə Gününü ona görə qeyd edirik ki, belə tədbirlər ailə birliyinin möhkəmlənməsinə və işlə şəxsi həyat arasındakı tarazlığın qorunub saxlanmasına kömək edir. Bu, bizim uşaqlarımız üçün həm şən, həm də tərbiyəvi xarakter daşıyan bir gündür. Valideynlərlə birgə işə gəlmək həqiqətən unikal bir imkandır, xüsusən də, həmin iş yeri tikinti meydançasında yerləşirsə”. Uşaqlara tikinti meydançasında nə baş verdiyi və hansı işlərin görüldüyü haqda qısa məlumat verildi. Uşaqlar üçün layihə ofisinə qısa ziyarət təşkil olundu və valideynlərinin hansı gündəlik işləri gördükləri barədə məlumat verildi.


















SOCAR
POLYMER





“Biz Ailə Gününü ona görə qeyd edirik ki, belə tədbirlər ailə birliyinin möhkəmlənməsinə və işlə şəxsi həyat arasındakı tarazlığın qorunub saxlanmasına kömək edir. Bu, bizim uşaqlarımız üçün həm şən, həm də tərbiyəvi xarakter daşıyan bir gündür. Valideynlərlə birgə işə gəlmək həqiqətən unikal bir imkandır, xüsusən də, həmin iş yeri tikinti meydançasında yerləşirsə”.

*Fərid Cəfərov*





SOCAR POLYMER

FLUOR

*Certificate of Attendance*

Presented to:

*Tofiq Rahimov*

for attending the

## SOCAR Polymer Project Families Day

Presented on 18th February 2017



Farid Jafarov
General Manager
SOCAR Polymer





SOCAR POLYMER

Tədbirin axırında uşaqlar sehrbazlar şousuna baxdılar və böyüklərlə birgə nahar etdilər.




























SOCAR POLYMER


SOCAR Polymer Project Families Day


THIS IS WHY






SOCAR



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KIMYA SƏNAYESINDƏ
YENI ÜFÜQLƏR AÇIRIQ

SOCAR
POLYMER